# Qəbələdə fortepiano musiqisi axşamı

VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı çərçivəsində yerli və xarici tamaşaçılar üçün fortepiano musiqisi axşamı təşkil edilib.

Avqustun 5-də Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində keçirilən konsertdə Prezident təqaüdçüsü, adı Azərbaycanın gənc istedadlarının "Qızıl kitabı"na yazılan pianoçu Nərmin Nəcəfli, Bilkent Universitetinin və Ankara Şopen Musiqi Mərkəzinin müəllimi, pianoçu Nurlan Bağırov, Bilkent Universitetinin müəllimi, türk pianoçusu Çiğdem Çilesiz iştirak ediblər.



Konsertdə Avropa və Azərbaycan bəstəkarları V.A.Motsart, K.Debüssi, F.List, S.Raxmaninov, A.Piazolla, K.Qardel, S.Rüstəmov, T.Quliyev və F.Bədəlbəylinin əsərləri səslendirilib.

Musiqiçilərin ifaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

***AZƏRTAC***